# Azərbaycanın tarixi qələbəsi regionda yeni siyasi reallıqlar yaradır

**2020-ci ilin dünya ölkələri üçün çətin və mürəkkəb olmasına baxmayaraq, Azərbaycanın tarixinə silinməz izlərlə həkk olundu. 27 sentyabr tarixindən başlanan 44 günlük Vətən müharibəsi Azərbaycanın ərazi bütövlüyünün pozulmasına, mədəni-tarixi abidələrinin dağıdılmasına, milli-mənəvi dəyərlərimizin məhvinə, zəngin təbii ehtiyatlarımızın qanunsuz talanına və azərbaycanlıların öz torpaqlarından didərgin düşməsinə səbəb olan Ermənistanın işğalçılıq siyasətinə ağır zərbə vurulması ilə nəticələndi. Azərbaycan tarixi qələbə qazandı.**



Bu qələbə ilə itirilmiş milli-mənəvi dəyərlərimizə və tarixi-dini abidələrimizə bir daha sahib çıxdıq. Lakin, qələbənin əldə edilməsi heç də asan olmamışdır. Bunun arxasında Azərbaycanın son 17 il ərzində regionda və beynəlxalq münasibətlərdə həyata keçirdiyi xarici siyasət, ordu quruculuğu, sosial-iqtisadi inkişaf, vətəndaş-iqtidar həmrəyliyi və Azərbaycanın regional güc mərkəzinə çevrilməsi siyasəti dayanırdı. Bu siyasətin uğurla həyata keçirilməsi ölkə başçısı cənab İlham Əliyevin adı ilə birbaşa bağlıdır. Şanlı qələbənin və 17 illik siyasi təcrübənin uğurlu nəticəsinin, məhz 2020-ci ildə əldə olunmasını nəzərə alaraq, bir sıra tarixi məqamları xatırlamaq məqsədəuyğun olardı.

Qələbənin əsas səbəblərindən biri Azərbaycan xalqı tərəfindən Prezident İlham Əliyevə olan böyük etimad və inamın nəticəsi idi. Münaqişənin bitməsinə və qələbə qazanılmasına 44 gün bəs etdisə, dünyanın bu münaqişədə haqlı və işğala məruz qalan tərəf kimi, məhz Azərbaycanın olması faktını qəbul etməsinə 17 il vaxt lazım gəldi.

İlk gündən Azərbaycan dövləti bu münaqişənin diplomatik yolla həllini qarşıya məqsəd kimi qoymuşdu. Xarici siyasətin əsas hədəfi "Ali məqsəd –Qarabağ" kimi müəyyən olunmuşdur. Ölkə daxilində siyasi sabitliyin qorunması, iqtisadi və sosial inkişafın sürətləndirilməsi, insan hüquq və azadlıqlarının təmin edilməsi və regionda qonşu dövlətlərlə paritet və mehriban münasibətlərin qurulması siyasəti nəticəsində müasir beynəlxalq münasibətlər sistemində ölkəmizin əsas subyekt olması şərtləndi. Azərbaycanın dövlətinin bu münaqişənin, məhz ölkəmizin xeyrinə həlli istiqamətində tutduğu prinsipial mövqeyi qısa bir zamanda dünyanın aparıcı beynəlxalq təşkilatları tərəfindən hüquqi cəhətdən dəstəklənməyə başlandı.

Ermənistan tərəfinin danışıqlarda imitasiya xarakterli iştirakı, danışıqların müddətini daha da artırmaq cəhdləri və status-kvonun dəyişilməz qalması istiqamətində atdığı addımlar Azərbaycanın prinsipiallığını daha da artırdı. Ötən illər ərzində ölkəmizin bu istiqamətdə beynəlxalq mövqeləri daha da möhkəmləndi. Zaman artıq Azərbaycanın xeyrinə işləyirdi. Ölkə başçısı İlham Əliyev tərəfindən torpaqlarımızın işğaldan azad olunması strategiyası uğurla inkişaf etdirilirdi. Artıq Azərbaycanın dünyada təhlükəsizliyin təminatçısı qismində beynəlxalq münasibətlərin subyekti rolunda çıxış etməsi zərurətə çevrildi.

Azərbaycanın uğurlu xarici siyasəti nəticəsində artan nüfuzu, təbii ki, Ermənistan tərəfini narahat etməyə bilməzdi. Bunun nəticəsi olaraq, cəbhə bölgəsində baş verən kiçik həcmli və qısa müddətli münaqişələr Ermənistan tərəfindən artıq diversiya-təxribat aktlarına çevrildi. İlk belə təxribat 2016-cı ilin aprel ayında baş verdi və nəticədə 27 il işğal altında olan ərazimizin 2 min hektarı, o cümlədən, Lələtəpə və digər strateji əhəmiyyətli yüksəkliklər düşmən tapdağından azad edildi. Bu zəfər müzəffər ordumuzun və xalqın qələbəyə inamını daha da artırdı.

2003-2018-ci illər ərzində Azərbaycan münaqişənin sülh yolu ilə həlli prinsipini rəhbər tutaraq, Ermənistan tərəfi ilə müxtəlif səviyyəli görüşlərdə iştirak etmişdir. Ermənistanın 2-ci prezidenti R.Koçaryan və 3-cü prezidenti S.Sarkisyanla Azərbaycan Prezidenti İlham Əliyevin müxtəlif formatlı görüşləri olmuşdur. Lakin, təəssüf hissi ilə qeyd edilməlidir ki, Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi sayəsində bu illər ərzində münaqişə öz həllini tapmamışdır. Keçirilən görüşlərdə Ermənistan yalnız imitasiya xarakterli iştirak etmiş, münaqişənin həllini bilərəkdən uzatmışdır.

2018-ci ildə Ermənistanda baş vermiş dövlət çevrilişi nəticəsində hakimiyyətə gələn N.Paşinyan özünü demokrat kimi göstərsə də zaman keçdikcə onun da əsl erməni xisləti əvvəlki rəhbərlərdən fərqlənmədi. Hakimiyyətə gəldiyi zamandan bir müddət sonra Ermənistanın baş naziri olan N.Paşinyan Azərbaycana qarşı təxribatçı çıxışlar etməyə başladı .

Azərbaycan dövləti işğalçı Ermənistan rəhbərliyi tərəfindən birmənalı şəkildə həyata keçirilən destruktiv mövqeyinə qarşı "Qarabağ Azərbaycandır!" siyasi bəyanatını verdi.

27 sentyabr 2020-ci ildə Ermənistan ordusu Azərbaycana qarşı genişmiqyaslı təxribat əməliyyatına başladı. Bu, artıq 2020-ci il ərzində Ermənistan tərəfindən 3-cü təxribat əməliyyatı idi. Buna cavab olaraq. Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanının əmri ilə rəşadətli ordumuz genişmiqyaslı əks-həmlə əməliyyatına başladı. Müharibənin ilk günlərindən artıq Ermənistanın siyasi və hərbi rəhbərliyi uduzacaqlarını yaxşı anlayırdı.

8 noyabr 2020-ci il. Bu gün Azərbaycanın hərb, hüquq və siyasi tarixinə qızıl hərflərlə həkk olundu. Ali Baş Komandan, Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarətdən sonra xalqa müraciət edərək Şuşanın işğaldan azad olunduğunu bildirdi. Həmin gün Azərbaycan xalqı vahid oldu, şəhidlərimizin qisası alındı. Düşmən diz çökdü. İki gün sonra isə – noyabrın 10-da Ermənistan öz məğlubiyyətini qəbul etdiyi sənədə Prezident, Ali Baş Komandan İlham Əliyevin başladığı "Dəmir yumruq" əməliyyatı nəticəsində imza atdı. Eyni zamanda, bu, 17 il ərzində həyata keçirilən uğurlu xarici siyasətin məntiqi nəticəsi idi. Eyni zamanda bu son 30 ildə Azərbaycanın diplomatik sahədə əldə etdiyi ən böyük uğur idi. Ağdam, Kəlbəcər və Laçın rayonlarının döyüş baş vermədən düşməndən azad olunması isə Azərbaycanın siyasi qələbəsi idi.



Artıq müharibənin bitməsindən iki aya yaxın vaxt keçir. Bu müddət ərzində Azərbaycanın həyata keçirdiyi məqsədyönlü siyasəti nəticəsində regionda yeni geosiyasi reallıq yaranmışdır. Öncə bölgədə Rusiya və Türkiyə kimi qüdrətli dövlətlərin iştirakı ilə yeni əməkdaşlıq platforması yaranmışdır. Bundan öncə Azərbaycanın İran və Rusiya, Rusiya və Türkiyə, Türkiyə və Gürcüstan, İran-Türkiyə ikilik, üçlük formatında əməkdaşlıq təcrübəsi uğurla həyata keçirilmişdi. Bu gün isə bu format Ermənistan rəhbərliyi tərəfindən regionda yaranmış siyasi vəziyyətin düzgün qiymətləndiriləcəyi təqdirdə 5+1 kontekstində həyata keçirilə bilər. Bu, eyni zamanda, erməni xalqının siyasi düşüncə tərzindən də asılıdır.

Qələbənin əldə edilməsi ilə regionda və beynəlxalq müstəvidə Azərbaycanın siyasi nüfuzu artmışdır. Azad olunmuş torpaqlarda sosial-iqtisadi inkişaf, abadlıq və quruculuq işlərinin yüksək səviyyədə icrasına başlanılıb. Füzuli rayonundan Şuşaya yeni avtomobil yolunun çəkilişi artıq başlanıb. Yevlax – Bərdə – Xankəndi dəmiryolu xəttinin çəkilməsi layihələndirilib. Tezliklə, Horadizdən Ermənistan sərhədinədək dəmir yolu xəttinin çəkilməsi də icra olunacaq. Şuşanın su və elektrik təchizatı yenidən qurulmuşdur. Suqovuşana yeni avtomobil yolunun çəkilişi artıq tamamlanıb, elektrik stansiyalarının yenidən qurulması işinə başlanılıb.

Yaxın müddətdə Naxçıvandan Zəngilana gedəcək avtomobil yolunun inşasına başlanılması gözlənilir. Azərbaycanın cənub sərhədləri tam bərpa olunmuş və müvafiq sərhəd mühafizə infrastrukturu yaradılıb. Ağdam rayonunda 700 hektar ərazi minalardan təmizlənərək, taxıl əkininə başlanılıb. Bu il Şuşada "Xarı bülbül" festivalının və Vaqif poeziya günlərinin keçirilməsi nəzərdə tutulub. İlin sonuna kimi Füzuli Beynəlxalq Hava Limanının fəaliyyətə başlaması qərara alınıb.

Ümumilikdə isə 2021-ci ildə Qarabağda infrastruktur layihələrin icrası və yenidən qurma işlərinin aparılması üçün Azərbaycanın dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılmışdır.

Görülən işlərin intensivliyini nəzərə alaraq, 2021-ci ilin sonuna kimi bu faktların və görüləcək işlərin ikiqat artacağını indidən proqnozlaşdırmaq olar. Bütün bunlar bir daha onu deməyə əsas verir ki, Azərbaycan regionda sülhün və təhlükəsizliyin təminatçısı olmaqla, ümumilikdə Qafqazda regional güc mərkəzinə çevrilmişdir.

***Amid ƏLİYEV,***
***Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının doktorantı***